


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 157 (23.569)

*18 sentyabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2020-ci ildə tanınmış həkim və ictimai xadim Əqil Səftər oğlu Mehdiyevin anadan olmasının 100 illiyi tamam olur.

Ömrünün 50 ildən çoxunu səhiyyə təşkilatçısı və həkim kimi muxtar respublika səhiyyəsinin inkişafına həsr edən Əqil Mehdiyev Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri vəzifəsində səmərəli fəaliyyət göstərmişdir. Əqil Mehdiyev muxtar respublikanın ictimai və sosial həyatında da yaxından iştirak etmiş, birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri olmuşdur. Əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilən Əqil Mehdiyev Azərbaycan Respublikasının "Əməkdar həkimi" fəxri adına layiq görülmüş, "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, tanınmış həkim və ictimai xadim Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə

**qərara alıram:**

1. Əqil Mehdiyevin 100 illik yubileyi Naxçıvan Muxtar Respublikasında qeyd edilsin.
2. "Əqil Mehdiyevin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 sentyabr 2020-ci il*

## Muxtar respublikada müasir nəqliyyat sistemi yaradılmışdır

***İqtisadi inkişafın və sosial tərəqqinin təmin olunmasında nəqliyyat sektoru mühüm rol oynayır. Son dövrlər muxtar respublikada bu mühüm sahənin inkişafı istiqamətində genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilmiş, müasir avtomobil yolları salınmış, hava və dəmir yolu nəqliyyatının infrastruktur təminatı yaxşılaşdırılmışdır.***

Ötən dövrdə muxtar respublikanın əsas magistral yollarından olan, beynəlxalq yük və sərnişin daşımalarında mühüm rol oynayan 87 kilometr uzunluğunda Naxçıvan-Sədərək, 32,4 kilometr uzunluğunda Naxçıvan-Culfa magistral avtomobil yolları yenidən qurulmuşdur. Bundan əlavə, 88,8 kilometr uzunluğunda Naxçıvan-Şahbuz-Batabat magistral



avtomobil yolu da yenidən qurularaq istifadəyə verilmişdir.

Babək rayonunda uzunluğu 25,6 kilometr olan, 13 yaşayış məntəqəsini birləşdirən Hacıvar-Vayxır-Sirab avtomobil yolu, uzunluğu 25,4 kilometr olan, 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək şəhəri-Nehrəm qəsəbə-Arazkənd dairəvi avtomobil yolu, Culfa rayonunda uzunluğu 57,6 kilometr olan, 20 kəndi əhatə edən Çeşməbasar-Boyəhməd avtomobil yolu, Kəngərli rayonunda uzunluğu 39,2 kilometr olan, 5 kəndi əhatə edən Naxçıvan-Sədərək magistralı-Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu və digər avtomobil yolları yenidən qurulmuşdur. Ümumilikdə, 1 yanvar 2010-cu ildən 2019-cu ilin sonuna muxtar respublikada 1097 kilometr uzunluğunda avtomobil yolları yenidən qurulmuşdur. Bu dövrdə 69 körpü tikilmiş və ya yenidən qurulmuş, 27 körpü isə təmir olunmuşdur.

Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda xidmətin səviyyəsinin yaxşılaşdırılması istiqamətində yeni avtobuslar alınmış, muxtar respublikanın rayon mərkəzlərinə və kəndlərinə iritutumlu və rahat avtobuslarla müntəzəm reyslərin davamlılığı təmin olunmuşdur. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində müasir avtovağzal kompleksləri istifadəyə verilmişdir.

Muxtar respublikada hava nəqliyyatının inkişafı diqqətdə saxlanılmış, yeni inzibati bina inşa olunmuşdur. Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılması, uçuşların təhlükəsizliyinin tam təmin olunması məqsədilə "Şərq" və "Qərb" terminalları istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır.

Beynəlxalq Hava Limanında yüklərin təhlükəsiz daşınması və qəbulu məqsədilə karqo terminalı yenidən qurulmuş, maşın və mexanizmlər üçün qaraj kompleksi yaradılmışdır.

Muxtar respublikanın rayonlarında yaşayan əhalinin bilet təminatını yaxşılaşdırmaq məqsədilə Şərur, Ordubad və Şahbuz şəhərlərində aviakassa binaları istifadəyə verilmişdir.

Cari ilin yanvar-iyul aylarında Naxçıvan Beynəlxalq Hava Limanında uçuş-enmə zolağının yenidən qurulması başa çatdırılmış, Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi davam etdirilir.

Nəqliyyatın digər bir sahəsi olan dəmir yolunun inkişafı üzrə də mühüm tədbirlər həyata keçirilmiş, infrastruktur yenidən qurulmuşdur.



Bu ilin yanvar-iyul aylarında "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasında polis şöbəsi üçün inzibati binanın tikintisi, alçaq sərnişin platformasının və dartı yarımstansiyası binasının, Babək rayonunda Təhlükəsizlik Komandası binasının yenidən qurulması, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmir sexinin tikintisi, inzibati binasının yenidən qurulması, Park İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilir.

Həyata keçirilən tədbirlərin və ən əsası əhalinin yaşayış səviyyəsinin davamlı yüksəlişinin nəticəsidir ki, 2020-ci ilin yanvar-iyul aylarında muxtar respublikada nəqliyyat sektorunda 9 milyon 96 min 900 ton yük, 56 milyon 284 min 600 nəfər sərnişin daşınmışdır. 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 55,2, sərnişin daşınması isə 58,7 faiz artmışdır.

***Nəqliyyat sektorunda yük və sərnişin daşınması***




Yük və sərnişin daşınmasından, bütövlükdə, 28 milyon 932 min 200 manat gəlir əldə olunmuşdur ki, bu da 2010-cu ilin müvafiq dövrü ilə müqayisədə 52 faiz çoxdur.

Muxtar respublikada müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması məqsədilə 2020-ci ilin yanvar-iyul aylarında bu sahəyə 41 milyon 169 min 400 manat vəsait yönəldilmişdir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsinin yüksəldilməsi və nəqliyyat sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə cari ilin ötən dövründə Naxçıvan şəhərində şəhərdaxili marşrutlara 6 yeni avtobus buraxılmış, 10 nömrəli marşrut xətti istifadəyə verilmiş, 6 nömrəli marşrut xətti Babək şəhərinədək uzadılmışdır.

Cari ilin ötən dövründə Şərur rayonunda Qarxun-Muğancıq Mehrab-Məmmədsabir, Ordubad rayonunda Xanağa-Ağrı-Dizə-Vənənd kənd və Darkənd avtomobil yollarının və Culfa şəhərində avtomobil yolunun yenidən qurulması başa çatdırılmışdır.

Hazırda Naxçıvan şəhərində avtomobil yolunun, Culfa-Ordubad magistral, Şərur rayonunda Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kənd avtomobil yollarının, Şərur şəhərinə giriş, Qaraburc, Təzəkənd və Şəhriyar, Babək rayonunun Nəcəfalidizə, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic, Culfa rayonunun Camaldın kəndlərində avtomobil yollarının, Şərur şəhərində yeraltı piyada keçidinin yenidən qurulması davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Test imtahanları keçirilir



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət musiqi təhsili müəssisələrində vakant vəzifələrin tutulması üçün 15 iyul 2020-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanlarına 17 sentyabr tarixdən start verilib.

Dövlət musiqi təhsili müəssisələrinə işə qəbul mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilir.

Test imtahanlarında Naxçıvan Musiqi Kollecində işə qəbul üçün ali təhsil müəssisələrini, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün ali və ya orta ixtisas təhsili müəssisələrini bitirmiş şəxslər iştirak edə bilirlər.

Müsabiqəyə çıxarılmış 193 vakant vəzifəni tutmaq üçün 125 namizəd sənəd təqdim edib. Naxçıvan Musiqi Kollecinə işə qəbul üçün test imtahanında hər bir namizədə, ümumilikdə, 80 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə 70, informasiya və kommunikasiya texnologiyalarına aid 10 test tapşırığı təqdim edilir. Uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün imtahanda hər bir namizədə müəssisələrdə tədris olunan ixtisaslar üzrə 50 test tapşırığı təqdim edilir. Hər bir düzgün cavab bir balla qiymətləndirilir.

Naxçıvan Musiqi Kollecinə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə işə qəbul üçün 60 faizini (30 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir və müsahibə mərhələsinə buraxılır.

Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir. Test imtahanları 19 sentyabr 2020-ci il tarixədək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Yeni quruculuq ünvanı

*Tikinti-quruculuq və abadlıq tədbirləri muxtar respublika həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Quruculuq tədbirlərindən Azərbaycanın incisi sayılan Ordubad rayonuna da xeyli pay düşüb.*

Cari ildə də rayonda tikinti-quruculuq tədbirləri geniş vüsət alıb. Belə ki, Ordubad şəhərinin daxili avtomobil yolu yenidən qurulur, asfalt örtük salınır, mövcud piyada səkiləri bərpa edilir, ətraf abadlaşdırılır, elektrik dirəkləri, su, kanalizasiya, elektrik və rabitə xətləri yenilənir. Rayonda tarixi-mədəni irsimizin, milli dəyərlərimizin qorunması və təbliğinə yönəldilən tədbirlər də diqqətdə saxlanılıb. Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpası da həmin tədbirlərin davamıdır. Sahəsi 890 kvadratmetr olan məsciddə axund otağı, qadın və kişi ibadət zalları və digər otaqlar yerləşəcək. Məscidin həyətində abadlıq işləri aparılacaq, müasir istilik, işıqlandırma və suvarma sistemi yaradılacaq. Milli-memarlıq elementlərindən istifadə edilməklə qədim məscidin tarixiliyi qorunub saxlanılacaq, eyni zamanda müasir görkəm veriləcək.



**Abbas SEYİD**

Xidmət sektorlarımız

# Etibarlı və sərfəli rabitə xidmətləri təklif edir

*Müasir dövrdə yeni texnologiyaların tətbiqi hər yerdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da iqtisadi və sosial sahələrdə keyfiyyət dəyişikliyi yaratmış, sürətli və etibarlı rabitə əlaqələri insanların mədəni həyatının mühüm faktorlarından birinə çevrilmişdir. Hər cür mütərəqqi yeniliyə həssas olan cəmiyyətimizdə insanlara təklif olunan yüksəkkeyfiyyətli xidmətlər, bu mənada, özünün səbəb-nəticə əlaqələri baxımından həmişə rəğbətlə qarşılanır. XX əsrin mühüm yeniliklərindən biri olan internet və mobil rabitə xidmətlərinin Naxçıvanda geniş yayılması cəmiyyət həyatında köklü dəyişikliklərə səbəb olmaqla, iqtisadiyyatın digər sahələrində də yeni yüksəlişə stimul verib.*

Muxtar respublikamızda rabitə infrastrukturunun təkmilləşdirilməsi əhaliyə yeni yüksəkkeyfiyyətli rabitə və internet xidmətlərinin göstərilməsi üçün əlverişli şərait yaradır. Bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçirilməsi nəticəsində "Naxtel" mobil rabitə şəbəkəsinin abunəçi tutumunun artırılması üçün yeni baza stansiyalarının istifadəyə verilməsi istiqamətində işlər davam etdirilmişdir. Həyata keçirilən bütün bu tədbirlər 4-cü nəsil "Naxtel" şəbəkəsi abunəçilərinin sayının artmasına səbəb olub.

Artıq bir neçə ildir ki, 4-cü nəsil "Naxtel" mobil rabitə şəbəkəsinin istifadəçiləri də yaradılan müasir şəraitdən bəhrələnməklə yeni texnologiyaların həyatımıza gətirdiyi sürət və komfortdan maksimum faydalanmaq imkanı qazanıblar.

Naxtel 4G ölkəmizdə fəaliyyət göstərən mobil rabitə operatorlarından biri kimi bu sahədə göstərdiyi xidmətlərə bir çox yeniliklərlə başlayıb. Belə ki, quraşdırılmış baza stansiyaları vasitəsilə Naxçıvan Muxtar Respublikasının, demək olar ki, bütün ərazisində yüksəkkeyfiyyətli mobil rabitə xidmətləri göstərilir. Sürətli və etibarlı rabitə sayəsində muxtar respublika əhalisinin böyük bir qisminin istifadə etdiyi mobil internetin sürəti də tətbiq edilən texnologiyaya uyğun olaraq artıb. Bütün insanların, eləcə də biznes subyektlərinin işgüzar fəallığını artıran belə bir yenilik, şübhəsiz, muxtar respublikanın mərkəzi yaşayış məntəqələri ilə yanaşı, ucqarların da sosial-iqtisadi inkişafına, əhalinin mədəni tələbatlarının ödənilməsinə mühüm töhfə verir. "Naxtel"in abunəçilərə təklif etdiyi güzəştli tariflər isə əhalinin hər təbəqəsinin, xüsusən tələbə-gənclərin də sərfəli və sürətli internetdən istifadə edə bilməsinə birbaşa öz təsirini göstərir. Son dövrlərdə təhsildə onlayn dərslərin, eləcə də digər onlayn görüş, konfrans və digər tədbirlərin keçirilməsi zamanı Naxtel 4G istifadəçiləri təklif olunan danışıq və internet paketlərinin nə qədər sərfəli və etibarlı olduğunu bir daha gördülər. Bütün bunlar isə muxtar respublikanın hansı guşəsində olursa-olsun, abunəçilərin rahatçılığını təmin etməklə yanaşı, Naxçıvanın müasir imicinin və inkişaf səviyyəsinin dünyaya tanıdılmasında da mühüm rol oynayıb.

Fəaliyyətində müştəri məmnuniyyəti prinsiplərini əsas tutan "Naxtel" abunəçilərinin ondan gözlədiyi bütün yeniliklərə və texnoloji dəstəyə cavab verən müasir infrastruktura və bacarıqlı insan resurslarına malikdir. Ölkəmizin bütün onlayn ödəmə portalları, habelə "Naxçıvanbank"ın elektron ödəmə terminalları vasitəsilə "Naxtel" abunəçilərinin hesablarına günün istənilən saatında mümkün olan ödəniş edilməsi, vəsait köçürülməsi həyata keçirilir. İnternet istifadəçilərinin Azərbaycan, ingilis və rus dillərində hər cür lazımi informasiya ala biləcəyi *www.naxtel.az* saytında isə "Naxtel" abunəçiləri burada yeniliklərdən xəbərdar olmağa, tarif seçimindən tutmuş kampaniyalardan faydalanmağa, onlayn ödəmədən rominq xidmətlərinə, toplu SMS xidmətlərindən GPS monitorinq xidmətlərinə qədər bütün məlumatları onlayn qaydada əldə edə, saytdakı canlı dəstək bölümündən Naxtel 4G operatoru ilə birbaşa əlaqə saxlayaraq onları maraqlandıran suallara cavab ala bilərlər. Mobil operatorun 299 çağrı mərkəzinə edilən zənglərə, və sosial şəbəkə hesabları vasitəsilə olunan müraciətlərə də dərhal cavablar verilir, abunəçiləri maraqlandıran məsələlər qısa müddətdə həllini tapır. Bunlarla yanaşı, "Naxtel Plus" mobil əlavəsi vasitəsilə abunəçilər müxtəlif nömrə və hesab əməliyyatlarını icra edə, balans məlumatları, nömrə qiymətləri və yeniliklər ilə tanış ola bilərlər. "Naxtel"in Naxçıvan şəhərindəki satış mərkəzlərində də müştərilərə müasir səviyyəli xidmətlər göstərilməklə şirkət və abunəçilər arasında etibarlı korporativ əməkdaşlıq modeli formalaşdırılıb.

"Naxtel" həmişə öz müştərilərinin maraqlarını diqqətdə saxlamağı bacarır. Bu məqsədlə təklif olunan kampaniya və bonuslar abunəçiləri "Naxtel"ə daha sıx bağlayan faktorlardan biridir. Elə naxçıvanlılar da, "Naxtel"ə olan bağlılığını heç zaman gizlətmir, insanlar mobil nömrələrini paylaşdıqda ilk olaraq "060" prefiksini dilə gətirirlər. Bu gün digər mobil operatorların abunəçisi olan istənilən naxçıvanlı da, yaxud ailə üzvlərində hökmən bir aktiv Naxtel 4G nömrəsi vardır. Bütün bunlar isə çox qısa zaman kəsiyində böyük bir inkişaf yolu keçmiş Naxçıvanın ümumi mənzərəsinin bir göstəricisidir.

*"Naxtel" öz abunəçilərini yeni ünvanda salamlamağa hazırlaşır. Naxçıvan şəhərinin baş prospektində, insanların gur axınının olduğu bir məkanda açılan yeni ofisi təkcə "Naxtel" abunəçilərinin deyil, eləcə də bütün naxçıvanlıların xidmətində olacaq. İnanırıq ki, yeni ofis bütün "Naxtel" ailəsinə uğur gətirəcək və abunəçilər xoş xəbərlərlə bir-birini sevindirəcəklər.*

"İxrac ili" – 2020

## Naxçıvanın ləzzətli ixrac məhsulları

***Tarixən Naxçıvanın yüksəkkeyfiyyətli yerli məhsullarını qədim diyarın sakinləri kimi, buraya səfər edən qonaqlar da həvəslə alıb istifadə ediblər. Həmişə söz Naxçıvan nemətlərindən düşərkən, onların dad-tamı, ləzzəti və şübhəsiz, insan sağlamlığına olan faydaları haqqındakı fikirlər hər kəsin bəyəndiyi və dostları ilə həvəslə paylaşdığı bir mövzuya çevrilir.***





Naxçıvanda fəaliyyət göstərən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsalı olan və hazırda dünyanın bir çox ölkələrinə ixrac edilən məhsullar da həm yerli, həm də xarici bazarlardakı alıcıların həvəslə seçib aldığı nemətlərdəndir. Bu, eyni zamanda ölkəmizdə idxaldan asılılığın azaldılması və ixracın həcminin genişləndirilməsi strategiyası üzrə qarşıya qoyulmuş vəzifələrə muxtar respublikamızın mühüm bir töhfəsidir.

1995-ci ildə əsası qoyulmuş "Ləzzət Qida Sənaye" MMC-nin məhsulları hazırda xarici bazarlarda yaxşı tanınır. Naxçıvanın ixrac potensialı artdıqca şirkətin də xarici bazarlarda qazandığı etibarlı əməkdaşlıq genişlənir və onun məhsullarına olan tələbat da artıb. Əla keyfiyyət, münasib qiymət və ləzzətli dada malik olan bu məhsullar müasir istehlakçının tələbatını ödəməklə müəssisənin də rəqabətqabiliyyətli fəaliyyətini təmin edir. İstehsal olunan qida məhsullarının keyfiyyətinin dünya və Avropa standartlarına uyğunlaşdırılması, aparılan reklam və marketinq tədbirləri nəticəsində artıq 58 çeşiddə vafli və peçenye məhsulları Yəməndən Əfqanıstanadək geniş bir coğrafiyadakı ölkələrə ixrac olunur. Şirkətdən aldığımız məlumata əsasən cari ilin ilk altı ayı ərzində Gürcüstan, Oman, İraq, Yəmən, Türkmənistan və Əfqanıstan kimi ölkələrə, ümumilikdə, 370 tona yaxın həcmdə qida məhsulları göndərilmiş və 471 min ABŞ dollarından artıq həcmdə valyuta əldə edilmişdir. İxrac olunan məhsulların həcminə görə şirkətin xarici bazarlardakı partnyorları arasında Gürcüstan və İraq daha çox diqqəti cəlb edir. Belə ki, bəhs olunan dövrdə bu ölkələrin hər birinə 100 tondan artıq həcmdə "Ləzzət Qida Sənaye" MMC-nin məhsulları ixrac edilib. Məhsulların növ və çeşidlərinin ixrac bazarlarının alıcı potensialına uyğun olaraq şaxələndirilməsi də bu işdə öz bəhrəsini verib.

Muxtar respublikamızın və eləcə də ölkəmizin daxili bazarına çox geniş çeşiddə ərzaq məhsulları çıxaran "Ləzzət Qida Sənaye" MMC gələcəkdə daha çox xarici ölkədə bazar seqmenti tutmaq üçün uğurlu ixrac strategiyası obyektidir. Burada çalışan hər bir işçi bilir ki, məhz ixrac bazarlarında yaxşı mövqe tutmaqla şirkət fəaliyyətinin davamlılığını təmin etmək və qlobal rəqabət də qazanmaq mümkündür. Digər bir tərəfdən isə ölkəmizin xarici ticarət balansına qazandırılan hər bir dollar onun iqtisadiyyatına yeni investisiya qazandırmaqla bərabər, tərəfdaşlarının yanında yüksək imic və yeni etibarlı partnyorluq deməkdir. Bu isə "Ləzzət Qida Sənaye" MMC-nin "Nati" əmtəə nişanı ilə "Made in Azerbaijan" brendinə verdiyi töhfədir.

Əli CABBAROV

## Torpaqlardan səmərəli istifadə və onların mühafizəsi vacib məsələdir

*Muxtar respublikada torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının qeydiyyatı zamanı operativliyin təmin edilməsi avqust ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmışdır.*



Torpaqların elektron kadastr uçotunun aparılması üçün Şahbuz rayonunun 5 bələdiyyəsi üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüş, torpaq reyestrində saxlanılan məlumatlarla uyğunluğu yoxlanılmışdır. Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur və Kəngərli rayonlarında monitorinqlərə başlanılmış, ay ərzində Şərur rayonunun Oğuzkənd, Dərəkənd, Aşağı Daşarx və Yuxarı Daşarx, Kəngərli rayonunun Böyükdüz kəndlərində aşkar olunmuş torpaqlardan qanunsuz istifadə faktlarının aradan qaldırılması istiqamətində iş aparılmışdır.

Torpaqların şorlaşma, şorakətləşmə, müxtəlif antropogen və texnogen çirklənmələrdən mühafizəsi, bu cür ərazilərin müəyyənləşdirilməsi, xəritələşdirilməsi və yenidən əkin dövriyyəsinə qatılması ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə aid qurumlarla razılaşdırılmaqla müvafiq komissiya yaradılmış, torpaqların monitorinqinə başlanılmışdır. Avqust ayı ərzində Ordubad, Culfa və Babək rayonları üzrə aparılan monitorinqlər başa çatdırılmışdır.

"İlandağ" geoparkının yaradılması ilə əlaqədar olaraq müxtəlif məzmunlu xəritə və planlar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ötən ay ərzində 616 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 481 texniki sənəd hazırlanmış, yeni yaranmış 38 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 108 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır. 16 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, həyətyanı təsərrüfat binaları və təsərrüfat fəaliyyəti ilə əlaqədar icarəyə götürülmüş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

**Naxçıvan Muxtar Respublikası**
***Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Muxtar respublikada yeni laboratoriya fəaliyyətə başlayıb

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin vəzifələrindən biri də tikinti sahəsinə aid fəaliyyətin bütün mərhələlərində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin həyata keçirilməsini təmin etmək, bu sahədə dövlət nəzarətini həyata keçirmək, habelə tikintidə istifadə olunan tikinti materiallarının, konstruksiya və avadanlıqların müvafiq sertifikatlarının olmasını, onların dövlət standartlarının tələblərinə cavab verməsini, müəyyən olunmuş qaydada istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsini yoxlamaqdan ibarətdir. Həmin vəzifələrin yerinə yetirilməsi üçün Nazirliyin Dövlət Tikintidə



Təhlükəsizliyə Nəzarət İdarəsinin fəaliyyətinin təmin olunması diqqət mərkəzində saxlanılır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fövqəladə Hallar Nazirliyinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir ki, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin mühəndis-geoloji, beton və sement laboratoriyasının fəaliyyəti son illər təkmilləşdirilərək Türkiyə, Rusiya, Yaponiya, İsveçrə, Çin və Koreya istehsalı olan ən müasir sınaq avadanlıqları ilə təchiz edilmişdir. Laboratoriya tərəfindən akkreditasiya sahəsinə uyğun olaraq tikintidə istifadə edilən materialların standartlara uyğunluğu yoxlanılır və tikinti sahəsində mühəndis-geoloji işlərin aparılması təmin edilir.

Yeni qurulan armatur sınağı laboratoriyası da bu sahədə fəaliyyətin təmin olunmasına xidmət edir. Laboratoriyada təmir işləri aparılaraq müasir iş şəraiti yaradılmış və lazım olan avadanlıqlar və mebel-inventarla təchiz olunmuşdur. Burada quraşdırılmış sınaq avadanlığı Türkiyənin UTEST firması tərəfindən istehsal olunmuşdur. LCD monitorlu və hidravlik sistemli idarəetmə qurğusu olan UTM-4000 modelli avadanlığın dartma və sıxma gücü 60 tondur. Laboratoriyada 8-32 millimetr diametrli armaturların standartlara uyğun keyfiyyət göstəricilərini müəyyən etmək mümkündür. Laboratoriya işçiləri Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademik Sadıq Dadaşov adına Elmi-Tədqiqat və Layihə-Konstruktor İnşaat Materialları İnstitutunda təcrübə keçmişlər. Laboratoriyada sınaqların keçirilmə qaydası, sınaq nəticələrinin protokollaşdırılması və bu sahə üzrə standartların tələbləri ilə bağlı UTEST firmasının mütəxəssisləri tərəfindən laboratoriya işçilərinə onlayn təlim keçirilmişdir.

Qeyd edək ki, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin fəaliyyətinin təmin olunması muxtar respublikada bina və qurğuların təbii və texnogen fəlakətlərdən müdafiəsi üzrə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində tikinti norma və qaydalarının tələblərinə əməl olunmasına nəzarəti daha da gücləndirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Səhiyyə müəssisələri üzrə yarmarkaya 540 vakant iş yeri çıxarıldı



*Naxçıvan Muxtar Respublikası Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə səhiyyə işçiləri üçün əmək yarmarkası keçirilib.*

Səhiyyə naziri Niyazi Novruzov tədbirdə çıxış edərək səhiyyə sistemində aparılan quruculuq işlərindən, həyata keçirilən islahatlardan danışıb. Bildirilib ki, son illər səhiyyənin inkişafında, tibbi xidmətin yüksək səviyyədə aparılmasında, tibbi kadrların hazırlanmasında müəyyən uğurlar əldə olunub.

Qeyd edilib ki, muxtar respublikada tibbi kadrlara olan tələbatın ödənilməsi məqsədilə Naxçıvan Dövlət Universitetində ali, Naxçıvan Tibb Kollecində isə orta ixtisas təhsilli tibbi kadr hazırlığı aparılır.

Səhiyyədə gedən islahatlar çərçivəsində əhaliyə göstərilən tibbi xidmətin gücləndirilməsi məqsədilə şəhər və rayonlarda müasir tibb avadanlıqları və texnika ilə təchiz edilmiş yeni səhiyyə müəssisələri istifadəyə verilib, fəaliyyətdə olan tibb müəssisələrində əsaslı təmir işləri aparılıb. Muxtar respublikada səhiyyə sisteminin yenidən qurulması xidməti keyfiyyətcə daha da yaxşılaşdırıb, icbari tibbi sığortanın tətbiqində uğurlar qazanılıb. Pandemiya dövründə səhiyyə işçilərinin fədakarlığı muxtar respublikada əhalinin sağlamlığının qorunmasında mühüm əhəmiyyət kəsb edib.

Nazir kənd yerlərindəki səhiyyə müəssisələrində yeni əmək fəaliyyətinə başlayan gənc mütəxəssislər üçün güzəştlər və stimullaşdırıcı tədbirlərdən də danışıb, işlə təmin olunacaq gənc məzunlara uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev bildirib ki, həyata keçirilən quruculuq tədbirləri yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun təmin olunması və sosial müdafiəsinin gücləndirilməsinə əlverişli zəmin yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası üçün əmək bazarı müntəzəm təhlil edilir və nəticələrə uyğun şəkildə müxtəlif ixtisaslar üzrə peşə kursları təşkil olunur, əmək yarmarkaları keçirilir. Həmçinin sosial qayğıya ehtiyacı olan ailələr müəyyənləşdirilərək özünüməşğulluq proqramına cəlb edilir və onlar seçdiyi sahə üzrə zəruri vəsaitlərlə təmin olunur. Nəticədə, muxtar respublika əhalisinin sayının və yaşayış üzrə ehtiyac meyarının artmasına baxmayaraq, sosial yardım almaq üçün müraciət edən şəxslərin sayında ildən-ilə azalma müşahidə edilir.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə builki məzunu, işaxtaran Bənövşə Qasımova gənc kadrların işlə təminatında əmək yarmarkalarının əhəmiyyətindən danışıb, görülən bu işləri, yaradılan şəraiti muxtar respublikada əhalinin sosial rifahına yönələn hərtərəfli dövlət qayğısının parlaq ifadəsi kimi dəyərləndirib. O, yaradılan hərtərəfli şəraitə görə tədbir iştirakçıları adından dövlətimizə minnətdarlığını bildirib.

Sonra işaxtaranlar əmək yarmarkasında boş iş yerləri ilə tanış olublar. Yarmarkada həkimlər üçün 463, orta tibb işçiləri üçün isə 77, bütövlükdə, 540 vakant yer təklif edilib.

Yarmarkada 30 həkim və 37 tibb bacısı olmaqla, 67 nəfər işə göndəriş alıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Hərbi hissəyə 4 ton tərəvəz sovqatı aparılıb



Muxtar respublikada xalq-ordu birliyinə nümunə olaraq hərbi hissələrə meyvə-tərəvəz sovqatları verilməsinin davamı kimi Şərur rayonundakı "Vüsal" Kiçik Müəssisəsinin kollektivi hərbi hissəyə 4 ton kartof və soğan təhvil verib.

Müəssisənin rəhbəri Mürşüd Həsənov bu gün əsgərlərimizin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını qeyd edərək, ayrı-ayrı özəl qurumların, fermer və sahibkarların Vətənin keşiyində dayanan igid oğullarımızın qayğısına qalmasını, onlara sovqat göndərməsini xalq-ordu birliyinin bariz nümunəsi, mənəvi dəstək olduğunu deyib.

Hərbi hissənin zabiti gətirilən sovqata görə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

### Təhsil millətin gələcəyidir

# Bir məktəbin uğurları



Yüz illərdir, Azərbaycan elminə, mədəniyyətinə dahilər ərməğan edən Naxçıvanımız bu gün də öz təhsil ənənələrini uğurla davam etdirir. Yurdumuzda təhsilin inkişafının diqqət mərkəzində saxlanılmasının nəticələri isə göz qabağındadır. Muxtar respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlər intellekt və qabiliyyətləri ilə doğma diyarımızın adını yüksəklərə qaldırır, təhsil tariximizə yeni uğurlu səhifələr yazırlar. Hər il olduğu kimi, bu il də hər bir şagirdin qazandığı müvəffəqiyyətə görə müəllimlər də, valideynlər də sevinir, çünki onların da etimadları doğruldu, çəkdikləri zəhmət hədər getmədi. Tələbə adını qazananlar isə özlərini çox xoşbəxt hesab edir, bir sözlə, ümidləri doğrultduqları üçün sevinirlər. Həm də yuxusuz, gərgin gecə və gündüzlərin, stress və narahatlıqların artıq arxada qalması onları fərəhləndirir. Yeni dərs ilinin ilk günləri bütün məktəblərdə sevinc yaşanır. Builki məzunların tələbə adını qazanması şagirdlərə böyük stimul olub. Belə məktəblərdən biri də Bilik Günündə qonağı olduğumuz Naxçıvan şəhər Cəmşid Naxçıvanski adına 11 nömrəli tam orta məktəbdir.

İlk həmsöhbətimiz Göyərçin Əliyeva ibtidai sinif müəllimidir. O, 37 ildir ki, körpə fidanların məktəbə qədəm qoyduğu ilk gündən onların orta təhsili başa vurana qədər həm müəllimləri, həm də ən yaxın dostları olub. Bu gün fəxrlə vaxtilə əlindən tutub "Ana", "Vətən" kəlmələrini yazdırdığı, hərf, rəqəm öyrətdiyi şagirdlərindən danışır. İftixar hissi ilə deyir ki, onlar indi dövlətinə, Vətəninə xeyirli övladlar, ziyalılardır. Biri universitet rektoru, digəri həkim, bir başqası həkim, müəllimdir. O deyir: "Sevinirəm ki, ölkəmizdə istedadlı yeniyetmə və gənclərin aşkara çıxarılmasına diqqət yetirilir və bu istiqamətdə dövlət səviyyəsində tədbirlər həyata keçirilir. Məktəbimizdə bu gün də öz elmi, təhsili, təlim-tərbiyəsi ilə seçilən belə şagirdlərimiz çoxdur. Onların uğurları bizim də nailiyyətimizdir".

Məktəbin biologiya müəllimi Aytəkin Qasımova bu məktəbin məzunu olduğunu deyir. O bildirir ki, burada dərs demək mənə ikiqat qürur verir. Qəbul imtahanlarında yüksək bal toplayan məzunlar valideynlərinə, müəllimlərinə hədsiz sevinc yaşadıblar. İnanırıq ki, həmin məzunlar yaxşı kadr kimi yetişəcək, harada olmalarından, hansı ixtisasa yiyələnmələrindən asılı olmayaraq, Vətəninə, millətinə sadiq olacaqlar.

Qədim yurdumuzun köklü təhsil ənənələrini davam etdirərək təhsil tariximizə yeni uğurlar yazan məzunlardan bir neçəsi ilə də həmsöhbət olduq.

***Həsən Cahangirli*** imtahanlarda I ixtisas qrupunda 641 bal toplayaraq həm öz arzusuna çatıb, həm də müəllim və valideynlərini sevindirib. Onunla söhbətimiz müəllimləri ilə görüşə gəldiyi doğma məktəbdə oldu:



– İbtidai sinifdən başlayaraq riyaziyyat fənninə marağım çox olub. Yuxarı siniflərdə oxuyanda muxtar respublikada keçirilən bilik yarışlarında, fənn olimpiadalarında dəfələrlə yer qazanmışam. 2017-ci ilin fevral ayında fizika fənni üzrə keçirilən fənn olimpiadasının respublika mərhələsində VIII sinif şagirdləri arasında II, yenə həmin ilin dekabrında keçirilən olimpiadada IX siniflər arasında II, X sinifdə təhsil alanda riyaziyyat fənni üzrə III yerə layiq görülmüşəm. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin keçirdiyi məktəblilərin muxtar respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə XI sinif şagirdləri arasında I yerə layiq görülmüş, diploma ilə təltif olunmuşam. Bu ilin iyun ayında respublika fənn olimpiadasının final mərhələsində riyaziyyat fənni üzrə I yerin sahibi olub "Qızıl" nişanla təltif edilmişəm. Şahmat üzrə Naxçıvan şəhər birinciliyində I-II yerlərə layiq görülüb, diplomlarla təltif olunmuşam. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən muxtar respublikanın IX-XI sinif şagirdləri arasında keçirilən "İnteqrasiya" inteqrativ-intellektual oyunu üzrə "Muxtariyyət kuboku" uğrunda yarışda III yerə layiq görülmüşəm. Həmin ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə "Muxtariyyət kuboku" uğrunda Naxçıvan şəhər məktəbliləri arasında keçirilən seçimdə I yeri tutmuşam. Həmçinin bu ilin fevral ayında Naxçıvan şəhərində yeniyetmələr arasında təşkil olunan "İntellektual oyunlar olimpiadası"nın şəhər birinciliyində "Poliqon" strateji intellektual oyunu üzrə III yeri qazanmışam.

Müsahibim onu da deyir ki, ingilis və rus dillərinə xüsusi marağı var. 2016-2017-ci illərdə keçirilən olimpiadada sertifikata layiq görülüb. İxtisas seçimi kompüter mühəndisliyi olub.

***Səkinə Rəsulova*** da öz arzusuna çatan məzunlardandır:



– Təhsil aldığım dövrdə bir sıra bilik yarışlarında, intellektual oyunlarda uğurla iştirak etməklə yanaşı, keçirilən sınaq imtahanlarında hər zaman yüksək nəticə əldə etmişəm. Coğrafiya fənninə və mütaliəyə böyük marağım vardır. Muxtar respublika fənn olimpiadalarında müxtəlif siniflərdə oxuduğum dövrdə coğrafiya, tarix, riyaziyyat fənləri üzrə uğurlu nəticələrim olub. Məktəbi "Gümüş" nişanla bitirmişəm. 582 bal toplamaqla İqtisadiyyat fakültəsini seçmişəm. İnkişaf edən, müasir, güclü bir dövlətin vətəndaşı olmağımız bizi gələcəyə daha böyük ümidlə baxmağa sövq edir. Universitetdə təhsil alacağım illərdə də məktəbdə qazandığım bilikləri təkmilləşdirəcək, dövlətimizin bizə yaratdığı şəraitdən istifadə edib gələcəkdə Vətənimizə fayda verə biləcək savadlı bir iqtisadçı olmağa çalışacağam.

***Əjdər Rzalı*** məktəbi fərqlənmə attestatı ilə bitirib. O deyir: – Ətrafımdakı insanların təhsilə olan sevgisi məni də məktəbə ilk qədəm qoyduğum gündən oxumağa, biliklərə yiyələnməyə sövq edib.



Müsahibim məktəb illərində qazandığı uğurlardan da söhbət açır:

– 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən muxtar respublikanın IX-XI sinif şagirdləri arasında keçirilən "İnteqrasiya" inteqrativ-intellektual oyunu üzrə "Muxtariyyət kuboku" uğrunda yarışda, 2020-ci ilin fevral ayında Naxçıvan şəhərində yeniyetmələr arasında keçirilən "İntellektual oyunlar olimpiadası"nın şəhər birinciliyində "Poliqon" strateji intellektual oyununda uğurlar qazanmışam. 2020-ci ildə keçirilən respublika fənn olimpiadasında coğrafiya fənni üzrə final mərhələsinə yüksəlmişəm.

İmtahanlarda 537 bal toplayan Əjdər İqtisadiyyat ixtisası üzrə ali təhsil almaq və peşəkar iqtisadçı olmaq niyyətindədir. Bu gün yaşadığım sevinci sözlə ifadə etmək çox çətindir. Mən öz adımdan mənə və mənim kimi yüzlərlə şagirdə göstərilən qayğıya görə dövlətimizə minnətdaram. Təhsildə göstərdiyim uğurlarla yanaşı, həm də Vətənimizə layiqli vətəndaş olmağa çalışacağam.

***Nərmin Həsənova*** İngilis dili fənninə böyük marağı olduğunu deyir. Bildirir ki, o, III ixtisas qrupu üzrə 548 bal toplamağa nail olub. İngilis dili fənnini sevdiyi üçün gələcəkdə peşəkar tərcüməçi kimi fəaliyyət göstərmək istəyir. Məktəbdə oxuduğu dövrlərdə bir çox intellektual yarışlarda iştirak edib. "Oxunması zəruri olan kitabların Siyahısı" ilə bağlı keçirilən bilik yarışında muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında I yerə layiq görülüb. Nərmin onu da deyir ki, hər il yüksək nəticə göstərən məzunların Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşlərini izləyəndə onlara həsəd aparır və bir gün bu arzuya çatmağa çalışırdım. Tələbə adını qazanmaqdan daha çox bizə gənc nəslə örnək olan, ümummilli liderimizin yolunu uğurla davam etdirən rəhbərlə görüşdüyüm üçün çox xoşbəxtəm.



Məktəbin uğurları barədə müəllimlər və məzunlarla söhbətimizi yekunlaşdırıb təhsil ocağını gəzir, burada yaradılan şəraitlə tanış olduğum zaman çox yox, 30 il öncəyə qayıdır, məktəb illərimi xatırlayıram. Bizim təhsil aldığımız illərdə Vətənimizin başının üstünü qara buludlar almışdı. Müharibə, blokada, aclıq, elektrik enerjisinin tez-tez kəsilməsi üzündən işığa həsrət qalmağımız, mavi yanacağın olmaması bizi də, valideynlərimizi də sınağa çəkirdi. Gecələr çıraq işığında dərs oxuyur, qışın şaxtalı günlərində məktəbə gəlir, soyuq sinif otaqlarında əllərimiz donur, qələm tuta bilmirdik. Ölkəmiz yenicə müstəqillik əldə etdiyi üçün bir çox çətinliklərə tab gətirməli olurduq. Uşaq olsaq da, bütün bu çətinliklərə dözür, gələcəyə inamla baxırdıq. Ümidimiz çox keçmədən doğruldu, ulu öndər Heydər Əliyevin qayıdışı bütün naxçıvanlılara, Azərbaycana yeni bir həyat bəxş etdi. Artıq universitetdə təhsil alanda müasir təhsil ocaqlarının inşa edildiyinə, yenidən qurulduğuna şahid olduq. Bu gün çox sevinclə deyirəm ki, övladlarımız müasir, geniş, hər bir şəraiti olan məktəblərdə təhsil alırlar. Növbəti məqaləni hazırlamaq məqsədilə ətraflı tanış olduğum 11 nömrəli tam orta məktəbdəki kimi bütün təhsil müəssisələrimizdə müasir fənn kabinələri, laboratoriyalar, elektron lövhəli siniflər yaradılıb. Onlara düşən isə yaxşı oxuyub, Vətənimizə layiqli kadrlar olmaqdır. Dövlətimizin təhsil siyasətinin əsasını da gənc nəsli xoşbəxt, hərtərəfli dünyagörüşünə malik, layiqli mütəxəssis, ən əsası isə əsl vətəndaş, əsl azərbaycanlı kimi yetişdirmək təşkil edir.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Əhalinin pensiya təminatı diqqət mərkəzində saxlanılır

*Son illər ölkə həyatının sosial və iqtisadi sahələrində müəyyənləşdirilən prinsipial uğurla reallaşdırılmış, qısa müddətdə çox mühüm iqtisadi islahatlar aparılmışdır.*

Bu islahatlar muxtar respublika əhalisinin də sosial müdafiəsini gücləndirmiş, pensiya və müavinətlərin qanunvericiliyə uyğun təyin edilməsi və vaxtında ödənilməsi, habelə ödənilmə sahəsində tətbiq olunan mütərəqqi üsullar əhaliyə daha yüksək səviyyədə xidmət göstərilməsini təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən əhalinin, xüsusilə əmək pensiyaçılarının rahatlığının təmin olunması, onların rifah halının yaxşılaşdırılması istiqamətində tədbirlər daim diqqət mərkəzində saxlanılmışdır. Belə ki, fond avqust ayını da uğurla başa vurmuş, üzərinə düşən vəzifə və tapşırıqların yerinə yetirilməsi üçün müvafiq tədbirlər görmüşdür. Əmək pensiyaları və məcburi dövlət sosial sığorta ödəmələri vaxtından əvvəl maliyyələşdirilmiş, pensiya ödəmələrinə 14 milyon 627 min manat, sosial sığorta ödəmələrinə isə 418 min manat vəsait xərclənmişdir.

Müvafiq mərkəzi icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 8 milyon 102 min manat vəsait daxil olmuşdur.

Hesabat dövründə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 102 vətəndaşa əmək pensiyası təyin edilmişdir ki, bunlardan 56-sı yaşa, 8-i sağlamlıq imkanları məhdudluğa, 38-i isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Pensiya təyin olunmuş vətəndaşların 46-sı kişi, 56-sı isə qadındır.

Ötən ay fərdi uçot sistemində də işlər davam etdirilmiş, yeni əmək fəaliyyətinə başlayanlara sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 153 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

# Naxçıvanda ustad müəllimlərin mövcudluğu musiqi mədəniyyətimizə işıq saldı

***Milli musiqi mədəniyyətimizin formalaşması***

Ölməz sənətkar, musiqi mədəniyyətimizin banisi, Şərqdə ilk operanın yaradıcısı və yaşadıcısı, eyni zamanda bir çox ilklərin müəllifi Üzeyir Hacıbəyli zirvəsindən danışmaq istəyirəm. Elə bir zirvə ki musiqi mədəniyyətimizin atası, milli musiqimizin qorunub saxlandığı və mühafizə olunduğu tarixi abidə və olduqca qiymətli mirasdır. Bu mirasda "Leyli və Məcnun" operasına baxmağa gələn onlarla tamaşaçının, "Koroğlu" operasını dillər əzbərinə çevirən sənətşünasların xatirələri var. O sənətşünaslar ki "Arşın mal alan"da ilk səssiz filmin iştirakçısı, "Sənsiz" romansının aşiqi, himnimizin ürəkdən ifaçısı və sair...

Dahi bəstəkar, musiqi mədəniyyətinin yaranması, xalq mahnılarımızın yığılıb bir araya gəlməsi və inkişaf etdirilməsi üçün, demək olar ki, bütün bölgələrimizdə xidmətlər göstərmiş, Naxçıvanda isə, xüsusilə yaradıcı potensiallı insanların mövcudluğunu duymuşdu. Yaxın dostları Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, İsa Musayev bu torpağa xüsusi sevgi duymağına vəsilə olmuşdu. Naxçıvan musiqi və teatr mədəniyyətinə dərindən bələd olan dahi sənətkar burada istedadlı mütəfəkkirlərin, yaradıcı insanların üzə çıxarılmasında əlindən gələni əsirgəməyib. Üzeyir bəy 1937-ci ildən ömrünün sonuna qədər Naxçıvandan seçilən xalq deputatı kimi bu bölgənin əhalisinin bütün problemləri ilə yaxından tanış olub və onların həllinə çalışıb. Bu işlərdən biri də Naxçıvanda musiqi məktəbinin yaradılması təşəbbüsü idi. Bunun nəticəsində Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri 23 avqust 1937-ci il tarixdə Naxçıvan Muxtar Respublikasında musiqi məktəblərinin açılması haqqında qərar imzalayır. Köhnə hərbi hospitalın yerində 1 nömrəli uşaq musiqi məktəbi fəaliyyətə başlayır. Hətta 1937-1938-ci tədris ili üçün Naxçıvan şəhəri və rayonlarüzrə kontingent də müəyyən edilir, 5 şöbə fəaliyyət göstərir. Bəstəkarın buraya təyin etdiyi Hacı Məmmədovun, Xəlil Cəfərov və Məmməd Cəfərovun musiqi mədəniyyətimizin inkişafında misilsiz xidmətləri olmuşdur. Sonralar yaşayıb-yaratmış tanınmış simalarının – Məmməd Məmmədov, Ramiz Mirişli, Əkrəm Məmmədov, Yaşar Səfərov, Nazim Kazımov, Rafail Kərimov kimi musiqiçilərin yetişməsində və onların davamı kimi istedadlı gənclərin üzə çıxarılmasında, musiqi mədəniyyətimizin əhatə dairəsinin genişləndirilməsində mühüm rol oynayıb. Üzeyir bəydən miras qalan musiqimizin dirçəlməsində xidmətləri olan, musiqi mədəniyyətimizin tədqiqatlarına töhfə sayılan Rafail Kərimovun "Naxçıvan musiqi mədəniyyəti tarixindən" kitabında yer alan sənətkarlardan, Naxçıvanda fəaliyyət göstərən və naxçıvanlı musiqiçilərin bir qismi haqqında məlumat verəcəyəm.

***Dillər əzbəri "Barı Naxçıvan" mahnısı***

Aprelin 25-i 1945-ci il... Böyükbağda teatrsevərlərlə söhbət edən Məmməd Cavadov Naxçıvan haqqında yaxşı bir şeir olsaydı, mahnı bəstələyərdim fikrini irəli sürür. Sənət dostları təəssüf hissi ilə bildirir ki, bunu İslam Səfərlidən başqa kimsə edə bilməz, o da ki, müharibədədir. Təsadüfən gələn gənc ordubadlı şair Hüseyn Əzimi işarə edərək "budur arzuladığın şair də gəldi" deməkləri ciddiyə alan bəstəkar şairlə söhbətləşir və etiraf edir ki, Naxçıvan haqqında ürəyə yatan şeir olsa idi, gözəl bir musiqi bəstələyərdi. Hüseyn Əzim də bəstəkarın təklifini, ideyalarını cəmləşdirib 40 dəqiqə içində Naxçıvan haqqında şeiri yazır və bəstəkara təqdim edir. Yarım əsrdən artıq yaşı olan, dillər əzbəri "Barı Naxçıvan" mahnısı, beləcə, yaranır. İlk ifaçısı isə bəstəkarın həyat yoldaşı Zərqələm Cavadova olur. 1945-1946-cı illərdə 1 nömrəli uşaq musiqi məktəbində işlədiyi vaxtlarda Azərbaycan Xalq çalğı alətləri orkestri, Dövlət caz orkestri, Sazçı Qızlar Ansamblının yaradılması görülən xeyirxah işlərdən idi ki, bu da istedadlı musiqiçilərin üzə çıxarılmasında böyük rol oynadı.

***Naxçıvanın musiqi mədəniyyəti barədə Zülfüqar Hacıbəylinin xatirələri***

Bəstəkar Zülfüqar Hacıbəyli 1911-ci ildə Naxçıvana gəlir. Bu gəliş Naxçıvan musiqi mədəniyyətinin, teatr sənətinin inkişafına, musiqiçilərin, aktyorların, eləcə də gənc Məmməd Nəsirbəyovun yaradıcılıq həyatına mühüm təsir göstərir. Gələcəyin ilk ali təhsilli musiqiçisi bu dövrdə yetişir. Zülfüqar Hacıbəyli Naxçıvan teatrında Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Ər və arvad", özünün "50 yaşında cavan" musiqili komediyalarını səhnələşdirərək tamaşaya qoyur. Ötən əsrdə yalnız rus klassiklərinin əsərlərindən səhnəciklər görənlər Azərbaycan sənətkarlarının komediyalarına baxırlar. Bəstəkar "Evliykən subay" operettasını Naxçıvanda yaşayarkən tamamlayır və 1912-ci ilin mart ayında Naxçıvan teatrının səhnəsində bu əsər də böyük coşqu ilə tamaşaçılara təqdim olunur. Mənbələrdə oxuyuruq ki, 1910-cu ilə qədər Azərbaycanın digər bölgələrində qadınları teatrda görmədiyimiz təqdirdə Naxçıvanda təşkil edilmiş teatr salonu həmişə qadınlarla dolu olurdu. Bir haşiyə çıxaq: Arxiv mənbələrində qeyd olunur ki, məşhur müəllim və yazıçı Rəşid bəy Əfəndiyev 1917-ci ilin axırında Naxçıvanda qızlar məktəbinin müdiri vəzifəsində çalışarkən, həmin məktəbin müəllimi, qadınların maarifləndirilməsi yolunda var-qüvvəsi ilə çalışan Nazlı xanım Nəcəfova Rza Təhməsibin köməkliyi ilə məktəbin qızlardan ibarət dram dərnəyini yaratdı. Bu, Naxçıvan tarixində görünməmiş mədəni inqilab oldu. Xurafat dövründə bu cür addım mədəni mühitimizin inkişafı, yaradıcı qadınların ön plana çıxması demək idi. Naxçıvan dram teatrının aktyorları və qabaqcıl fikirli ziyalılar dram dərnəyinə köməklik göstərir, 1917-ci ilin noyabr ayının 12-də qadınlar üçün "Arşın mal alan" musiqili komediyasının nümayişi təşkil olunur. Zal qadınlarla dolub-daşır. Tamaşada rolları ifa edən xanımlar – Soltan bəy – Süsən Sultanova, Cahan xala – Gövhər Kəngərli, Süleyman – Asiya Məmmədəliyeva, Vəli – Xanım Vəzirova, Gülçöhrə – Dilbər Sultanova, Əsgər – Günəş Kəngərli, Telli – Fatma Şeyxova öz rollarının öhdəsindən məharətlə gəlib, təbii ifaları ilə tamaşaçılar tərəfindən hərarətlə alqışlanırlar.

***Dünya işığından məhrum olmaq görməmək deyil hələ***

Sarvanlar məhəlləsinin sakinləri həm dəf, həm də tar alətində ifa edəndə işlərini yarımçıq qoyub onu dinləməyə toplaşardılar. O qədər gözəl, o qədər ürəkdolusu ifa tərzi ilə musiqinin sehrinə düşüb sənət nümunələri səsləndirirdi ki, onu dinləyənlər eşitməkdən yorulmaz, hətta bir gün eşitməyəndə narahat da olardılar. Maraqlısı da o idi ki, fitri istedadlı Səfərin gözləri dünya işığına həsrət qalmışdı. Səfər Rəcəbli qəlbinin gözləri ilə musiqini duyur və hiss edirdi. Onun bu istedadı gələcəkdə bir çox sənətkarlar ordusunun yetişməsi üçün vəsilə olacaqdı. O, bəzən çox hirslənəndə tar ifa edərək hirsini soyudardı. Səfərin həm mənəvi dünyasının, həm də ruhunun qidasını yalnız musiqinin ahəngi düzəldə bilərdi. Rəcəbli 18 yaşından o vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən Pionerlər məktəbində dərs deyir. Məclislərdə, toylarda ifaçılıq onu tanınmış musiqiçilərdən olan Yusif Əliyevlə qarşılaşdırır. Yusif Əliyev gənc Səfəri rəhbərlik etdiyi orkestrə dəvət edir. Səfərin səhnəyə gəlişi, beləcə, başlayır. 1943-1948-ci illərdə Naxçıvan Radio Verilişləri Komitəsinin nəzdində yaradılan Şərq üçlüyü mütəmadi olaraq radio dalğalarında çıxışlar edir. 1946-cı ildə Səfər Rəcəbli və Məmməd Cavadovun təşəbbüsləri ilə ilk Xalq Çalğı Alətləri Orkestri yaradılır. Zərb muğamlarını, rəngləri, xalq mahnı və rəqslərini Səfər Rəcəbli öyrədir. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Nazim Quliyevin "Görkəmli ustad Səfər Rəcəbli – 100" kitabında qeyd olunur ki, Üzeyir Hacıbəylinin "Fantaziya"ları, "Sevgili canan" və "Sənsiz" romansları, "Bayatı Kürd" rəngləri silsiləsi, zərb muğamları, xalq mahnı və rəqsləri də repertuarına daxil idi. Orkestr 1949-cu ilədək fəaliyyət göstərib. Onun bəstələdiyi "Müəllim", "A dostlar", "Cənnət Ordubad", "Bağçamızda gül varmı?", "Yarı gördüm öz bağçamda" bu gün bizə çatan dəyərli sənət nümunələridir. O, Nəcəf bəy Vəzirovun "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", Mirzə Fətəli Axundovun "Lənkəran xanın vəziri", Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu" tamaşalarına, ümumiyyətlə isə 30-dan çox səhnə əsərinə musiqi tərtibatı verib. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 1964-cü il 22 oktyabr tarixli Fərmanı ilə "Naxçıvan MSSR-in Əməkdar artisti" adına layiq görülüb. O, tələbələrindən biri xaric ifa etdikdə kim olduğunu dərhal duya bilirdi. Bunu tələbələri Ramiz Mirişli, Əkrəm Məmmədov, Nəriman Məmmədov, Rəşid Məmmədov xatirələrində vurğulayıb.

***Musiqi məktəbləri filiallarının, musiqi məktəbinin yaradılmasında müstəsna rolu olan tarzən***

Tanınmış tarzənlərin yetişməsində müstəsna rol oynayan, ilk dəfə 1964-cü ildən musiqi məktəbinin rayon üzrə filiallarının yaradılması təşəbbüsünü irəli sürən Rəşid Məmmədovdur o. Əvvəlcə məktəbin filiallarını yaradır, sonra isə həmin filialın müstəqil məktəbə çevrilməsinə nail olur.



Beləliklə, 1965-ci ildə Ordubad, 1967-ci ildə isə Culfa Rayon Musiqi məktəbləri, 1968-ci ildə Bəhruz Kəngərli adına Şərur Rayon Uşaq İncəsənət Məktəbi, 1969-cu ildə Şahbuz rayon Uşaq Musiqi Məktəbi yaradılır. Naxçıvanda ilk olaraq Səid Rüstəmovun "Tar məktəbi" dərsliyində verilən etüd və qammaları yuxarı sinif şagirdlərinə ifa etdirməyə başlayıb. Bununla yanaşı, "Melodik etüdlər" məcmuəsindən ayrı-ayrı nömrələri tədris proqramına daxil edib. Maraqlı faktlardan biri də o dövrdə ifa edilməyən Qərb və rus bəstəkarlarının əsərlərinin Azərbaycan milli musiqi alətlərində – tar və kamançada ifasına nail olur. Bunlardan Corc Bizenin "Karmen" operasından "Vals", "Antrakt", Mixail Qlinkanın "İvan Susanin" operasından "Vals", Frans Şubertin " Serenadası"nın ifalarını əlavə edərək uşaqlarda maraqlı rəngarəng musiqi repertuarı formalaşdırmışdır. Naxçıvanda 1 il müddətində fəaliyyət göstərən Xəlil Cəfərov getdikdən sonra orkestrə rəhbərlik edən tarzən ilk olaraq uşaqlara öz partiyalarını köçürməyi təklif edir. Hərə bir not dəftəri alıb klavirdən öz partiyalarını köçürdür. Not yazmaq təcrübəsini burada qazanan uşaqlar klavirlə tanış olur. Tarzənin şagirdlərindən ibarət orkestri 1974-cü ildə Naxçıvan Muxtar Respublikasının 50 illiyi münasibətilə keçirilən tədbirdə "Koroğlu" operasının uvertürasını ifa edir. Birinci frazadan sonra Rəşid Məmmədov orkestri idarə etmək üçün səhnəyə maestro Niyazini dəvət edir. Niyazinin Naxçıvan fəaliyyəti də bu səhnədən başlayır. Ulu öndər Heydər Əliyevin iştirak etdiyi həmin konsertdə Naxçıvanda orta ixtisas (indiki musiqi kolleci) musiqi məktəbinin yaradılmasını təklif edir. 1975-ci ildə indiki Naxçıvan Musiqi Kolleci fəaliyyətə başlayır. Bu addım gələcək musiqiçilərimizin konservatoriya təhsili alması üçün mühüm addım idi. Onun yaradıcılıq illərinə nəzər saldıqda, musiqi mədəniyyətimizdə nə qədər gərəkli işlər gördüyünün şahidi olursan. Bu silsilədən ümummilli lider Heydər Əliyevə, əmək qəhrəmanlarına həsr etdiyi 25-dən artıq mahnı, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 19 tamaşaya yazılmış musiqi, iki tar və fortepiano üçün pyes, xor və xalq çalğı alətləri orkestri üçün mahnı, xalq çalğı alətləri ansamblı üçün "Süita" əsərlərini göstərmək olar.

***Orta məktəblərdə xor kollektivlərinin yaradıcısı***

Akkordeon sinfinin açılmasında, xor kollektivlərinin yaradılmasında və mahnı bayramlarının təşkilində, o vaxtlar keçirilən məhsul bayramlarında özfəaliyyət kollektivlərinin iştirakında belə, onun adını çəkirik: Məmməd Məmmədov. O Məmməd Məmmədov ki truba sənətini Naxçıvanda tanıdanlardan, Azərbaycan xalq çalğı alətləri orkestrinə daxil olmayan truba vasitəsilə Azərbaycan musiqisinin ilk ifaçılarından, Tibb kollecinin qızlardan ibarət nəfəsli alətlər orkestrinin təşkilatçısı və Azərbaycanda keçirilən özfəaliyyət kollektivlərə baxışlarda dəfələrlə birləşmiş xorlara rəhbərlik edənlərdəndir.



Məmməd Məmmədov Naxçıvan musiqi mədəniyyətində nadir, hətta qənimət bir musiqiçi idi ki, böyük səhnələri məharətlə idarə edirdi. Bunu 70-ci illərdə idman müəllimi işləmiş Tahar Məmmədov xatirələrində qeyd edir: "O vaxtdan 30 il keçməsinə baxmayaraq, yaxşı yadımdadır. O zaman Azərbaycanda keçirilən idman yarışında ümumi orkestrə görkəmli dirijor və bəstəkar Niyazi rəhbərlik edirdi. Onun Məmmədin fəaliyyətindən razı qalması və onun əlini sıxaraq öz təşəkkürünü bildirməsi, sanki dünənki söhbətdir". 1939-cu ildə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Məktəbinin Kornet şöbəsinə daxil olsa da, təhsilini davam etdirə bilmir. İkinci Dünya müharibəsi illərində cəbhəyə yollanır. Müharibədən sonra Həştərxana gedib 33 nömrəli orta məktəbdə musiqi müəllimi işlədikdən bir müddət sonra yenidən Vətənə qayıdır. 1960-ə yaxın musiqi əsərinin müəllifi olan bəstəkarın ən böyük səylərindən biri "Əlvan çiçəklər" ansamblının yaradılması olur. 60-cı illərdən etibarən isə orta məktəblərdə musiqiyə olan marağı artırmaq üçün məktəblilərdən ibarət xor kollektivləri yaradılır ki, bu kollektivlər keçirilən tədbirlərdə 500, bəzən isə hətta 1000-ə yaxın məktəblidən təşkil olunur. Böyük maraqla qarşılanan ifalara isə yalnız xüsusi məharətə, yüksək bacarıqlı istedada malik dirijor, bəstəkar Məmməd Məmmədov rəhbərlik edə bilirdi. 1969-1971-ci illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları oynanılır. "Leyli və Məcnun" da baş rolları Nəzakət Məmmədova, Əli Mehdiyev, "Əsli və Kərəm"operasında isə Adilə Təbrizli, Müzəffər Səfərov ifa edirlər. Hər iki əsərə Məmməd Məmmədov uğurla dirijorluq edir.



Musiqi mədəniyyətimizin bugünkü inkişafı Üzeyir bəydən gələn milli musiqilərimizin, nota salınması, xalq mahnılarının yaşadılması musiqi axtarışlarının nəticəsi, yaradıcı musiqişünasların yetişməsi, adlarını tarixləşdirən sənətkarların xidmətləri ilə bağlı olub. Bu məqalədə onlardan yalnız bir neçəsindən bəhs edə bildik. Bu gün əsas məsələ onların bizə miras qoyduqlarını qoruyub saxlamaqdır. Milliliyə sadiqlik missiyası, muxtar respublikada musiqi mədəniyyəti sahəsində görülən işlər, verilən sərəncamlar bu gün musiqimizin hərtərəfli inkişafına şərait yaradıb və musiqi mədəniyyətimizi zirvədə saxlayıb. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi də musiqi mədəniyyətimizə verilən dəyərli töhfələrdəndir. Ali Məclis Sədrinin milli musiqi mədəniyyətimizlə bağlı dediyi qiymətli fikirlərlə sonlandırıram yazımı: ***"Milli musiqi o yerdə inkişaf edir ki, onun kökü olsun. Xalq isə o zaman milli musiqisi ilə fəxr edir ki, onun musiqi sənəti qədim xalq yaradıcılığı nümunələrinə, xalq musiqisinə əsaslansın. Çünki hər bir xalqın varlığı həm də onun xalq yaradıcılığında, xalq musiqisində yaşayır. Bu gün Gəmiqaya abidələrində həkk olunan qədim yallı nümunələri milli musiqimizin minillik inkişaf tarixindən xəbər verir".***

**Türkan HÜSEYNLİ**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 703